**İqtisadiyyata əsaslı kapital qoyuluşlarının həcmi artır**

Müxtəlif maliyyə mənbələri hesabına iqtisadiyyata əsaslı kapital qoyuluşlarının həcminin artması son illərdə Azərbaycanın investisiya reytinqinin yüksəlməsinə təkan verməklə yanaşı, sahibkarlıq subyektlərinin fəaliyyəti üçün zəruri sosial-infrastrukturun formalaşmasını da təmin edib. Dövlət büdcəsində əsaslı kapital qoyuluşları üçün nəzərdə tutulan vəsaitlərin ilbəil artımı da məhz cəmiyyətin artmaqda olan sosial-iqtisadi tələbatının ödənilməsinə, ölkənin mövcud istehsal potensialından səmərəli istifadəyə, elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsalata tətbiqinə geniş imkanlar açıb.

Ölkədəki mövcud siyasi, iqtisadi və hüquqi atmosfer iqtisadiyyatın sağlamlaşdırılmasının mühüm göstəricisi sayılan investisiya qoyuluşlarının həcminin artım dinamikasına da müsbət təsir göstərib. Hökumətin ardıcıl şəkildə həyata keçirdiyi tədbirlər respublikada investisiya qoyuluşlarından və əsas fondlardan istifadənin səmərəliliyini yüksəldib. İqtisadi İnkişaf Nazirliyinin məlumatına əsasən, 2012-ci ilin yanvar-mart ayları üzrə ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 2 milyard 99,4 milyon manat vəsait yönəldilib. Ötən ilin eyni dövrü ilə müqayisədə əsas kapitala yönəldilmiş vəsaitlərin həcmi 16,5% artıb. Həmin vəsaitin 72,8%-ni və ya 1 milyard 529,2 milyon manatını daxili investisiyalar, 27,2%-ni və ya 570,2 milyon manatını isə xarici investisiyalar təşkil edib.

İqtisadçı ekspertlərin fikrincə, əsaslı kapital qoyuluşlarının, əsasən, daxili imkanlar hesabına həyata keçirilməsi Azərbaycanın xarici sərmayələrdən asılı olmayan ölkə imicini formalaşdırıb. Respublikamız daxildə külli miqdarda vəsait tələb edən iri infrastruktur layihələrini reallaşdırmaqla yanaşı, region əhəmiyyətli layihələrə də dəstək verir. Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2012-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında bəyan etdiyi kimi, qarşıdakı 2 il ərzində mühüm infrastruktur layihələrinin icrası başa çatdırılacaq: lBir müddət əvvəl qarşıya vəzifə qoyulmuşdur ki, əsas infrastruktur layihələri növbəti iki il ərzində Azərbaycanda başa çatsın və ondan sonra biz Dövlət İnvestisiya Proqramına yeni prizmadan yanaşacağıq. Hazırda ölkə üzrə bütün bölgələrdə böyük infrastruktur layihələri icra edilir. Onların tam əksəriyyəti dövlət tərəfindən maliyyələşdirilir».

2012-ci ilin ilk rübündə əsas kapitala yönəldilmiş ümumi investisiyanın 1 milyard 339,8 milyon manatının (63,8%) qeyri-neft sektorunun inkişafında istifadə edilməsi də diqqətçəkici faktdır. Bu fakt deməyə əsas verir ki, hökumət Azərbaycanın perspektiv inkişafını nəzərə alaraq məhz qeyri-neft-qaz sahələrində istehsal prosesini stimullaşdırmağa çalışır. Neft və qaz gəlirlərindən asılılığın azaldılmasına xidmət edən kapital qoyuluşları həm də regionlarda sosial-mənəvi, intellektual mühitin əhəmiyyətli dərəcədə yaxşılaşmasına, ümumilikdə, insan amilinin inkişafına xidmət edir.

Hökumət iqtisadiyyata əsaslı kapital qoyuluşu prosesində əcnəbi sahibkarlıq subyektlərinin də fəal iştirakını təmin etməyə çalışır, bu məqsədlə laçıq qapı» siyasəti həyata keçirilir. Ölkədə əcnəbi investorların hüquq və mənafelərinin qorunmasına, mülkiyyətinin toxunulmazlığına, yerli sahibkarlara bərabər iş şəraitinin yaradılmasına, əldə edilmiş mənfəətdən maneəsiz istifadəsinə imkan verən mükəmməl qanunvericilik sistemi mövcuddur. lİnvestisiya fəaliyyəti haqqında», lXarici investisiyaların qorunması haqqında» qanunlar beynəlxalq maliyyə qurumları tərəfindən də yüksək qiymətləndirilir. Eyni zamanda, hökumət ötən illərdə bir sıra ölkələrlə ikiqat vergitutmanın aradan qaldırılması, investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında sazişlər imzalayıb. Ölkədə lisenziyalaşdırma sisteminin sadələşdirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilib, mövcud lisenziyalaşdırma sistemi köklü surətdə dəyişib. Lisenziyalaşdırılan fəaliyyət növlərinin sayı 240-dan 30-a endirilib, lisenziyanın müddəti 2 ildən 5 ilə qədər uzadılıb.

Həyata keçirilən tədbirlərin nəticəsidir ki, 2012-ci ilin yanvar-mart ayları üzrə xarici mənbələrdən əsas kapitala yönəldilmiş vəsaitin həcmi 570,2 milyon manat təşkil edərək əvvəlki ilin eyni dövrünə nisbətən 18,7% artıb. Qeyd olunan müddətdə xarici ölkələr və beynəlxalq təşkilatlar tərəfindən əsas kapitala yönəldilmiş xarici investisiyanın 525,5 milyon manatı (92,2%) Böyük Britaniya, ABŞ, Yaponiya, Norveç, Çexiya və Türkiyə investorlarının payına düşüb.

İqtisadi İnkişaf Nazirliyindən bildirirlər ki, 2012-2015-cü illərdə dövlətin investisiya siyasətinin ana xəttini investisiya axınının qeyri-neft sektorunun və regionların inkişafına yönəldilməsinin

stimullaşdırılması; regionlar arasında investisiyaların bölüşdürülməsinin optimallaşdırılması; investisiya fəaliyyətinin sosial istiqamətinin gücləndirilməsi; insan kapitalına, infrastruktura qoyulan investisiyaların prioritetliyi; müəssisələrinin investisiya cəlbediciliyinin daha da artırılması məqsədilə tədbirlərin davam etdirilməsi; daxili investisiyalarla yanaşı, birbaşa xarici investisiyaların ixracyönümlü sahələrə yönəldilməsi; beynəlxalq standartlara uyğun mühasibat uçotunun və auditor fəaliyyətinin yaradılması prosesinin sürətləndirilməsi tədbirləri təşkil edəcək.

Əlverişli investisiya mühitinin formalaşdırılması Azərbaycanın bütün dünyada etibarlı iqtisadi tərəfdaş kimi tanınmasını, qlobal maliyyə böhranı şəraitində respublikaya xarici sərmayə qoyuluşlarının artmını təmin edir. Respublikanın adambaşına düşən birbaşa xarici investisiyaların həcminə görə dünyanın qabaqcıl dövlətləri sırasında olması da bunun əyani təsdiqidir.

Samir MUSTAFAYEV